

## General Polad

*Sən elimin qəhrəmanı,*
*Yurda qurban etdin canı,*
*Səni əvəz edən hanı?*
*Hər an səni el edib yad,*
*General Polad, şəhid Polad!*

*Qəbələ, Vəndamdır yurdun,*
*İgidlikdə başda durdun,*
*Qəbələyə plan qurdun,*
*Bizə qazandırdın mərd ad,*
*General Polad, general Polad!*

*Düşməni qartal tək çaldın,*
*Lələtəpəni geri aldın,*
*Yaddaşda əbədi qaldın.*
*Millətini eylədin şad,*
*General Polad, general Polad!*

*Qanın yerdə qalan deyil,*
*Qisasını alırıq, bil,*
*Bunu söyləyir gənc nəsil,*
*Qarabağ olacaq azad,*
*General Polad, general Polad!*

Əhməd Məmmədli

***

### İstedadlı şairimiz Cəlil Xeyirbəyin (Komuradlının tək Madar oğlu Xeyirbəyin) əziz xatirəsinə

*At oynadırdı düşmən,*
*Yurdum Qarabağında,*
*Otuz il millət qaldı,*
*Qələbə sorağında.*

*Vətənə qurban getdin,*
*Ömrün lap gənc çağında,*
*Qarabağı qaytardın,*
*Verərək can Xeyirbəy!*

*Qazandırdın millətə*
*Yaxşı ad sən Xeyirbəy!*
*Hünərinə qoy*
*Qurban olsun bu can Xeyirbəy!*

*Doğmaların qalsa da,*
*Gözləri yaşlı sənsiz,*
*Vətənin azadlığı,*
*Sənə hər şeydən əziz*

*Şəhid olub tarixdə,*
*Qoydun silinməz bir iz,*
*Qarabağı qaytardın*
*Verərək can Xeyirbəy!*

*Səninlə fəxr eyləyir*
*Atan, anan, Xeyirbəy!*
*Ayrılığına dözmək*
*Deyil asan Xeyirbəy!*

*Sən yağdırdın düşənə*
*Gur güllə yağışını,*
*Dəmir yumruqla əzdin,*
*Onun o küt başını,*

*Xilas etdin vətənin*
*Torpağını, daşını*
*Qarabağı qaytardın*
*Verərək can Xeyirbəy!*

*Bu hünəri unutmaz*
*Azərbaycan, Xeyirbəy!*
*Sənsiz qalmaq çətindir*
*Bizə yaman Xeyirbəy!!!*

Əhməd Məmmədli, Qəbələ Yazarları İB-nın üzvü, şair.

Paralel.- 2023- cü il.- 30 mart.- S. 13.